MİN BİR MAHNI

Vüqar Əhməd



# MƏNİM NAĞMƏLƏRİM

VÜQAR ƏHMƏD

# MƏNİM NƏĞMƏLƏRİM

M. F.

Bakı - 2002

## YA MƏHƏMMƏD FÜZULİ

Ya Məhəmməd Füzuli,
Ərəb, fars, həm türk dili
Sənin qəzəl dilindi,
Bu il sənin ilindi.

Yaşadın beş yüz ili,
Səni sevdi türk eli,

O Kərbəla qəbrindi,
Azərbaycan qəlbindi.

Şerimin peyğəmbəri,
Sözdü onun gövhəri,
Məzarı İmama yaxın,
Zəvvarlar axın-axın.

Ya Məhəmməd Füzuli,
Leyli səndən gileyli,
Məcnunu nakam qoydun.
Sözünlə, qüdrətinlə
Çoxun kölgədə qoydun.

Ya Məhəmməd Füzuli,
Bildin meyvələr dili,
«Bəngü-badə», «Həftcam»
Sözlərinə möhtacam.

Ya müqəddəs Kərbəla,
Azərbaycan torpağı
Bir də görməsin bəla.
Silinsin qan çanağı,
Ya Peyğəmbər Füzuli,
Ya Məhəmməd Füzuli.